# Xidmət müasir tələblərə cavab verir

Son illər Azərbaycanda uğurla həyata keçirilən böyük işlər, aparılan məqsədyönlü islahatlar nəticəsində ölkə iqtisadiyyatı dinamik inkişaf edir. Azərbaycan Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında qeyd etmişdir ki, dünyada və bölgədə, həm də Avropada iqtisadi-siyasi böhran yaşanır. Buna baxmayaraq, ölkəmiz düşünülmüş, müstəqil siyasi kurs nəticəsində yeni nailiyyətlərə imza atmışdır. Bu gün əldə olunan uğurların təməlində Azərbaycanın iqtisadi inkişaf modeli dayanır və bizim iqtisadi inkişaf modelimiz bu gün bir çox ölkələr üçün cəlbedicidir. Bizim iqtisadiyyatımız artıq çoxşaxəli iqtisadiyyatdır. Ötən doqquz ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artmışdır ki, bu göstərici qeyri-neft sektorunun hesabına əldə edilmişdir.

Bu gün respublikamızda bütün sahələr inkişaf edir, yüksək uğurlar qazanılır. Ölkə iqtisadiyyatının sürətli inkişaf tempinə malik sahələrindən biri rabitə sahəsidir. Müasir qloballaşma dövründə rabitə sahəsinin müasir standartlar səviyyəsinə çatdırılması əsas məsələlərdəndir ki, dövlətimiz tərəfindən bu istiqamətdə genişmiqyaslı işlər həyata keçirilir. Həyata keçirilən islahatlar poçt sektorunun da sürətli inkişafını təmin etmişdir. Ölkə poçt rabitəsi ildən-ilə inkişaf edir, fəaliyyət sahəsini genişləndirir, iqtisadi göstəricilərini yüksəldir. Bu gün poçtumuz öz inkişaf səviyyəsinə görə bölgədə və MDB məkanında liderdir. Ölkə əhalisinə keyfiyyətli poçt xidməti göstərilməsi bu gün "Azərpoçt" MMC-nin, onun tabeliyində fəaliyyət göstərən müəssisələrin ən əsas vəzifəsidir. Bu istiqamətdə uğurlar qazanan Azərbaycan poçtu son bir neçə ildir ki, keyfiyyətin yaxşılaşdırılmasına görə ÜPİ-



nin qızıl səviyyəli sertifikatına layiq görülür.

Respublikamızda əhaliyə keyfiyyətli poçt xidməti göstərən poçt müəssisələri çoxdur. Bunlardan biri 1 saylı poçt filialının Mərkəzi Poçt Şöbəsidir. Ötən 9 ayda əzmlə çalışan kollektivimiz proqnoz tapşırıqlarına 100 faizdən artıq əməl etmişdir. Cari ilin 9 ayı ərzində ənənəvi xidmətlərlə yanaşı, qeyri-ənənəvi xidmət növləri üzrə də yüksək göstəricilər əldə olunub. Qeyri-ənənəvi xidmətlərdən olan mobil telefonların qeydiyyata alınması, valyuta mübadiləsi, DSMF, Yol Polisinin cərimələrinin yığımı, kommunal xidmətlər, domofon xidmətləri və s. həyata keçirilir. Ənənəvi xidmətlərdən isə telefon abunə haqlarının yığımı, teleqraf və faks xidmətləri, bağlamalar, kiçik paketlər və sifarişli məktubların qəbulu və çatdırılması. Bundan başqa, Mərkəzi Poçt Şöbəsində bank-maliyyə xidmətlərindən olan sürətli pul köçürmələri - "Zolotaya Korona", "Kontakt, "Western Union" uğurla reallaşdırılır.



Mərkəzi Poçt Şöbəsində əhaliyə müasir tələblər səviyyəsində keyfiyyətli poçt xidməti göstərilməsi üçün bütün lazımi imkanlar mövcuddur. Müasir standartlar səviyyəsində təmir olunan şöbə bütün müasir texniki avadanlıqlar və mebel dəstləri ilə tam təmin olunmuşdur. Poçt şöbəsində müştərilərin tələbatının ödənilməsi istiqamətində 35 nəfər işçi əzmlə çalışır. Bunlardan 23 nəfəri əməliyyatçı, 8 nəfəri poçtalyon, kuryer poçt 2 nəfər, 2 nəfər çeşidləyicidir. Ötən 9 ayda yüksək iqtisadi göstəricilərin əldə olunmasında əməliyyatçılardan Esmira Bayramovanın, Sevda Cəfərovanın, Gülşən Məmmədovanın, Aysel Həsənzadənin, İlahə Heybətovanın, poçtalyonlardan Şahin Poladovun, Xalidə Hüseynovanın, Almaz Məmmədovanın, kuryer xidməti göstərən Əşrəf Hacılının, "Alo" servis xidməti göstərən Aygül Tahirovanın, çeşidləyici Bəhruzə Nəsibovanın öz işlərinə məsuliyyətli və və peşəkar münasibətlərini xüsusi qeyd etmək lazımdır. Öz işlərində insan faktorunu əsas amil hesab edən kollektiv poçtun xidmətindən istifadə edən müştərilərin razı yola salınması üçün böyük əzmkarlıq göstərir. Bu gün poçtumuzda zamanın tələbindən irəli gələn yeni xidmət çeşidlərinin göstərilməsi poçtdan istifadə edən əhalinin sayını xeyli artırmışdır ki, bu da öz növbəsində iqtisadi göstəricilərin yüksəlməsini təmin edir.



Ötən 9 ayda Mərkəzi Poçt Şöbəsinin kollektivi əldə etdikləri uğurlarda "Azərpoçt" MMC və filial rəhbərliyinin diqqət və qayğısını daim hiss etmişdir. Kollektiv bundan sonra da poçt xidmətinin keyfiyyətini yüksəldəcək, 2015-ci ili yüksək nəticələrlə başa vuracaqdır.

**Səkinə HÜSEYNOVA,**
**1 saylı poçt filialı,**
**Mərkəzi Poçt Şöbəsinin rəisi.**